**Azərbaycan.** - 2024.- 14 sentyabr. - № 200. - S. 10.

# Bakının azad edilməsi müzəffər Azərbaycan Ordusunun ilk şanlı qələbəsi idi

## Türkiyə Milli Ordumuza yardım etməklə xalqımıza Çanaqqala zəfərinin vəfa borcunu ödədi

**Elşən Qəniyev**

**Sentyabrın 15-i Azərbaycan tarixində xüsusi önəmi olan qəhrəmanlıq salnaməsinin yazıldığı, Bakının daşnak-bolşevik işğalından azad edildiyi şərəfli gündür. Bakının paytaxt şəhər statusu alması cəmi 23 ay fəaliyyət göstərmiş Xalq Cümhuriyyətinin Azərbaycan xalqı və dövləti qarşısında göstərdiyi böyük tarixi xidmətdir.**

### Ermənilərin Bakı soyqırımı

1917-ci il fevralın 27-də başlayan, Oktyabr bolşevik çevrilişi ilə sona çatan proseslər, Rusiyanın daxilində baş verən sosial-siyasi kataklizmlər, vətəndaş müharibəsi öz azadlığı uğrunda mübarizə aparan xalqların, o cümlədən azərbaycanlıların inam və mübarizə hissini xeyli gücləndirmişdi…

Rusiyada sistem dəyişsə də, mahiyyət heç dəyişmədi. Lenin Rusiyanın keçmiş nüfuz dairəsinə daxil olan ucqarlarda öz niyyətini daha məkrli formada həyata keçirməkdə israrlı idi. Qafqazda, ümumiyyətlə, isə Xəzər regionu üzərində nəzarət bütün fövqəlgüclərin mübarizə hədəfinə çevrilmişdi. Bu geostrateji məqsədə nail olmaqda əsas açar rolunu Bakı şəhəri oynayırdı. Qafqazın bu iri sənaye-maliyyə mərkəzinin və Xəzər Limanının zəbt olunması bütün Xəzər dənizi akvatoriyası üzərində tam nəzarətin həyata keçirilməsi üçün geniş perspektivlər açırdı. Bundan əlavə, Bakıda neft emal edən onlarla zavod, digər sənaye müəssisələri cəmləşmişdi. Azərbaycan ərazisindən keçən və Cənubi Qafqazı birləşdirən magistral dəmir yolu, habelə 1907-ci ildə inşa edilmiş Bakı-Batum neft kəməri mühüm hərbi strateji amil hesab olunurdu. Bu kəmərin zəbt edilməsi Qafqazın bütün təsərrüfat - iqtisadi həyatı üçün təhlükə törədə bilərdi.

1918-ci il martın 3-də Brest-Litovsk sülh sazişinin imzalanması ilə rus qoşunları Cənubi Qafqazdan çıxarıldı. Qafqaz Almaniyanın və Osmanlının nüfuz dairəsinə bölündü. Bununla da regionda separatizmin stimullaşması və millətlərarası münasibətlər və sosial-siyasi konfliktlər daha da kəskinləşdi.

Ancaq bolşeviklər Bakı neftindən belə asanlıqla əl çəkmək niyyətində deyildilər. Bu arada Türkiyədən, İrandan qaçan ermənilər yaranmış münbit şəraitdən istifadə edib Bakıya cəmləşmiş və Cənubi Qafqazı tərk edən rus ordusunun silahları hesabına mükəmməl silahlana bilmişdilər...

Rusların müharibədən çıxmasına məyus olan ermənilər "Antanta"nın hərbi dəstəyi ilə Osmanlı torpaqlarında, bolşeviklərin dəstəyi ilə Bakıda müsəlman əhaliyə qarşı soyqırımları həyata keçirdilər. Erməni daşnakları bolşevik bayrağı altında maskalanaraq əvvəlcədən hazırladıqları plana uyğun olaraq Bakı şəhərində 1918-ci il martın 30-dan aprelin 1-nə kimi - üç gün ərzində kütləvi qırğınlar törətdilər. İnsanlığa yad olan vəhşiliklə müşayiət olunan həmin qırğınlar on minlərlə insanın ölümü ilə nəticələndi.

Bu soyqırımları Bakıda Stepan Şaumyanın başçılıq etdiyi Xalq Komissarları Sovetinin qurulması ilə nəticələndi. Azərbaycanın bütün ərazisində öz hakimiyyətini bərqərar etmək, "böyük Ermənistan" xülyası ilə yaşayan türk-müsəlman cəlladı fürsətdən istifadə edərək Azərbaycan ərazisində yaşayan bütün erməni əhalisini türklərə qarşı silahlandırır, öz çirkin niyyətini həyata keçirmək üçün daha geniş imkanlara sahib olmaq uğrunda çarpışırdı.

Bu zaman Cənubi Qafqaz xalqlarının birgə təşəbbüsü ilə təşkil olunan Zaqafqaziya Seymi onun azərbaycanlı üzvlərinin qətiyyətlə əleyhinə çıxmalarına baxmayaraq, Osmanlı imperiyasına müharibə elan etdi (13 aprel 1918-ci il). Bundan istifadə edən Osmanlı Dövləti Cənubi Qafqazın müxtəlif ərazilərində müsəlmanlara qarşı başlanan soyqırımın qarşısını almaq üçün Cənubi Qafqaza doğru sürətlə hərəkət etdi. Gürcü-erməni silahlı qüvvələrini darmadağın edən Osmanlı ordusu Qarsı, Ərdahanı, Batum qısa bir zamanda azad etdi. Çətin duruma düşən gürcü-erməni qüvvələri osmanlıların tələbi əsasında Brest-Litovsk sülhünün şərtlərini qəbul edərək Zaqafqaziyanı Federativ Respublika elan etdilər. Cənubi Qafqazın müstəqilliyinin elan olunması Azərbaycanda müsbət dəyişiklik yaratmadı. Azərbaycanın şərqində də, qərbində də azərbaycanlılara qarşı amansız erməni vəhşilikləri davam etdirildi.

1918-ci il mayın 11-də Batumda Osmanlı imperiyası, Almaniya, Zaqafqaziya Federativ Respublikası və Dağlı Respublikasının iştirakı ilə konfrans çağırıldı. Seymin Azərbaycan təmsilçiləri M.Ə.Rəsulzadə və M.H.Hacinski Osmanlı dövlətinin Batumda olan hərbi nümayəndəsi 3-cü Ordu komandanı Vehib Paşa ilə Azərbaycana hərbi yardım edilməsini müzakirə etdilər.

Osmanlı dövlətinin hərbi naziri Ənvər Paşanın 29 yaşlı qardaşı Nuru Paşanın 300 nəfər təlimatçıyla Azərbaycana göndərilməsi bu yardımın bünövrəsini qoydu. Nuru Paşa Zəngəzur, Cəbrayıl-Ağdam-Tətər marşrutu ilə irəliləyərək mayın 24-də Yevlaxa çatdı. Nuru Paşanın Gəncəyə varid olduğunun ikinci günü - mayın 28-də Tbilisidə Azərbaycan Milli Şurası Azərbaycanın Dövlət Müstəqilliyi haqqında "İstiqlal bəyannaməsi"ni qəbul etdi. 1918-ci il iyun ayının 4-də Batumda Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında imzalanan müqavilə hərbi əlaqələr istiqamətində yeni səhifə açdı.

**Çanaqqala zəfərinin vəfa borcu**

Xalqlarımız arasında dostluq və qardaşlığın tarixi bu torpaqların yaşı qədər qədimdir. İstər Anadolu, istərsə də Azərbaycan türkləri hər hansı bir təhlükə ilə üzləşəndə bu iki xalqın fədakar insanları heç bir çağırış gözləmədən düşmənə qarşı birgə mübarizə aparmağa səfərbər olmuşlar.

Bunu tarixi faktlar təsdiqləyir. Belə ki, Türkiyə Cümhuriyyəti Dövlət Osmanlı Arxivində və Müdafiə Nazirliyinin Hərbi Tarix və Strateji Etüd Arxivində azərbaycanlıların Çanaqqala döyüşlərində iştirakı, eləcə də Birinci Dünya müharibəsində könüllü olaraq Osmanlı ordusuna qatılan və Antantaya qarşı vuruşan, şəhid düşən və ya qazi olan azərbaycanlılar haqqında kifayət qədər məlumat var.

Çanaqqala məhvolma vəziyyətindəki bir ölkənin möhtəşəm qələbəsi, mübarizlik simvolu kimi əbədiləşib. Bu möhtəşəm qələbənin əldə olunmasında Türkiyənin 253 min döyüşçüsü ilə yanaşı, minlərlə azərbaycanlı heç bir çağırış gözləmədən türk düşmənləri ilə savaşaraq əsl fədakarlıq nümunəsi göstərib, 3 min nəfərə yaxın azərbaycanlı döyüşçü qanı ilə bu torpağı suvararaq, Türkiyənin bütövlüyü uğrunda canını qurban verib. Onlar türk qardaşları ilə birlikdə türkün Zəfər dastanını yazıblar.

1918-ci ildə müstəqilliyini yenicə elan etmiş Azərbaycan dövləti təhlükə ilə üz-üzə qalanda, erməni quldurları insanlığa yaraşmayan vəhşiliklər törədəndə Anadolu türkləri də Çanaqqalada zəfərinin vəfa borcunu ödəmək üçün Azərbaycana gəldilər...

**AXC-nin yaranması daşnakların "fəal"laşmasına səbəb oldu**

Xalq Cümhuriyyətinin yaradılması Bakı Xalq Komissarlığı Sovetinin bütün Azərbaycanı tutmaq planını pozdu. BXKS Azərbaycan Milli Hökumətini tanımadı və ona qarşı müharibə elan etdi.

AXC-nin iflası üçün bütün imkanlardan istifadə edən S.Şaumyan Ermənistanda olan ermənilərlə əlaqəyə girməyə başladı, Azərbaycanı işğal etmək, qüvvələri birləşdirmək üçün hər vasitəyə əl atdı. O, türk-müsəlman xalqlarının qəddar düşməni Andronikə göndərdiyi radioqramlarında yazırdı: "Sizin şəxsinizdə əsl xalq qəhrəmanını salamlayıram. Türk süngüsündən əziyyət çəkmiş bütün cəsur döyüşçülərə salam söyləyin".

Bakı Xalq Komissarları Sovetinin rəhbərliyi Rusiya bolşevik hökumətinin hərbi yardımına arxalanaraq mövcud olan bütün qüvvələri səfərbərliyə alıb qəti hücuma keçməyi, Gəncədə fəaliyyət göstərən AXC-ni süqut etdirib, hərbi təşəbbüsü ələ almağı qərarlaşdırdı. Məqsəd Osmanlı torpaqlarının bir hissəsini zəbt edib "böyük Ermənistan" yaratmaq idi.

Bu zaman BXKS-nin sərəncamında 18 mindən yuxarı yaxşı silahlandırılmış ordu var idi. Bunun da 70 faizindən çoxunu - 13 min əsgəri və bütün zabitləri ermənilər təşkil edirdi. Rusiya tərəfindən göndərilən hərbi yardımların da ardı-arası kəsilmirdi. 1918-ci il iyun ayının elə ilk günlərindən Rusiyadan 12 ədəd dörd düyməlik top, onun ekipajı və təchizatı yüklənmiş qatar Bakıya yola salınmışdı. Tula silah zavodundan da xeyli sayda pulemyot, tüfəng, patron göndərilmişdi. Nəhayət, kifayət qədər qüvvə və ehtiyat yaradıldıqdan sonra Bakı Xalq Komissarları Sovetinin hərbi işlər üzrə komissarı Q.Karqanov 1918-ci il iyunun 4-də 1-ci Qafqaz Qırmızı Korpusunun Cənubi Qafqaz dəmir yolu boyunca Hacıqabuldan qərbə doğru hücuma keçməsi barədə 8 saylı əmr imzaladı.

Stepan Şaumyan tam gücü ilə erməni xislətini işə salmışdı. O, Leninin adından Gürcüstan hökumətinə müraciət edib bildirdi ki, əgər türk ordusunu öz ərazisindən buraxmasa, Rusiya Gürcüstanın müstəqilliyini tanıyacaqdır.

Bakı Sovetinin 13 min əsgəri Cənubi Qafqaz dəmir yolu ilə Hacıqabul-Kürdəmir istiqamətində irəlilədi. Ermənilərdən ibarət bolşevik-daşnak qüvvələri Hacıqabul stansiyasına cəmləşdikdən sonra iyunun 10-da hücuma başladılar.

Daşnak-bolşevik qüvvələri iyunun 11-də Sığırlı stansiyasında olan məhdud sayda milli qoşun bölmələri üzərinə hücum etdilər. Ciddi bir müqavimətə rast gəlməyən erməni qoşun hissələri elə həmin gün Sığırlı stansiyasını işğal etdilər. Bu xəbəri böyük sevinclə qarşılayan S.Şaumyan dərhal Moskvaya V.Leninə teleqram göndərdi: "Yelizavetpol istiqamətində hərbi əməliyyatlara başlamış Bakı Soveti qoşunları komandanının ilk məlumatını göndərirəm. Məlumat bu gün, iyun ayının 11-də axşam saat 9-da

alınmışdır. Bizim qoşunların ön dəstəsi Sığırlı stansiyasını tutmuşdur. Bizim kəşfiyyat qatarımız, Karrar stansiyası istiqamətindən düşmən topları vasitəsilə atəşə tutulmuşdur. Qoşunlarımız irəliyə doğru hərəkət edir…"

## Həbib Bəy Səlimovun rəhbərlik etdiyi milli qüvvələr

İyunun 11-də Ucar stansiyasında olan podpolkovnik Həbib bəy Səlimov bu istiqamətdə vəziyyətin mürəkkəbləşdiyi barədə Qafqaz İslam Ordusunun Ərkani hərbi rəisi Nazim paşaya teleqram göndərdi. Həmin teleqramda bildirilirdi ki, "dəqiq məlumata görə, Sığırlıya üç piyada taburu, bir qaubitsa və bir mortir batareyası, dəmir yolu bölüyü və süvari bölməsi hücum etmişdir. Onlara əlavə kömək gəlməkdə davam edir. Hacıqabul və Qarasu stansiyalarında ermənilərdən ibarət çoxlu bolşevik qüvvələrinin toplanması müşahidə edilmişdir".

Həbib bəy Səlimova görə burada olan milli qüvvələr belə çoxsaylı qoşunun qarşısını almağa qadir deyildi. Bu qüvvələr ən yaxşı halda bolşevik-daşnak qoşunlarının sürətlə irəliləməsini ləngitməyə çalışaraq geri çəkilə bilərdilər. Ona görə də Həbib bəy Səlimov ora yeni qüvvələrin göndərilməsini xahiş edirdi.

Bu barədə o, Müsəlman korpusunun komandiri Əliağa Şıxlinskiyə də məlumat vermişdi. Ancaq iyunun 11-də Gəncədə olan türk qüvvələri ermənilərin tərk-silah edilməsi ilə məşğul idilər. Ona görə də Gəncədən əlavə kömək gələcəyi real deyildi. Milli qoşun hissələrinin zəif olduğunu görən erməni-daşnak ordusunun komandanlığı iyunun 12-də hücumu davam etdirdi. Kürdəmir ətrafında baş verən növbəti döyüş də bolşevik-daşnak qüvvələrinin uğuru ilə sona çatdı. Müsəlman korpusunun süvariləri müqavimət göstərməyə cəhd etsələr də, düşmən xeyli güclü idi. Ona görə Kürdəmir kəndi və stansiyası ermənilərin əlinə keçdi.

Xatırladaq ki, iyunun 14-nə kimi təpədən-dırnağadək silahlanmış böyük bir ordunun qarşısında Müsüslüdə Həbib bəy Səlimovun başçılıq etdiyi azərbaycanlılardan ibarət özünümüdafiə qüvvələri dayanmışdı. İyun ayı üz-üzə dayanmış qüvvələr üçün ciddi sınaq dövrü oldu. Cəbhə xəttində vəziyyət tez-tez dəyişirdi.

Müsüslü ətrafında toplaşan hissə və bölmələr Müsüslü dəstəsi (müfrəzəsi) adlandırılırdı. Döyüşün əsas ağırlığını öz çiyninə götürən dəstəyə podpolkovnik Həbib bəy Səlimov komandanlıq edirdi.

Cəbhədə təşəbbüsün yenidən ələ alınması üçün Bakı komissarlarının başlıca ümidi polkovnik L.Biçexarova idi. Rusiyanın İran ərazisindəki qoşunlarının tərkibində vuruşan kazak dəstəsinin rəhbəri L.Biçexarov hələ iyun ayında bolşeviklərlə əlaqə yaradaraq bolşevik-daşnak ordusuna qatılmasına razı olduğunu bildirmişdi. Dəstəsində 1500 nəfər Kuban və Trek kazakı olan L.Biçexarova bolşevik-daşnak cəbhəsinə komandanlıq etmək təklif olunmuşdu.

İyulun 1-də Biçexarov dəstəsi ilə gəmilərə mindi. Dəstənin tərkibində 5 ingilis zabiti və 4 zirehli avtomobil var idi. İyulun 2-də Biçexarov artıq S.Şaumyanla birlikdə cəbhə xəttində idi. Buradakı vəziyyətlə ötəri tanışlıqdan sonra Biçexarov tələb etdi ki, bir həftə ərzində cəbhəyə əlavə 2 min əsgər göndərilsin. İyulun 6-da Biçexarov Qafqaz İslam Ordusuna qarşı döyüşən bolşevik-daşnak qoşunlarının komandanı elan olundu və sol cinaha göndərildi.

İyulun 5-də Ağsu-Kürdəmir xəttinin tutulması üçün Qafqaz İslam Ordusu hissələrinin hücumu başladı. Həbib bəy Səlimovun rəhbərlik etdiyi Müsüslü dəstəsi düşmən qüvvələrinin zəifləməsindən məharətlə istifadə etdi və düşmənin müdafiə xəttini yarmağa müvəffəq oldu.

Bolşevik-daşnak qüvvələrinin bütün cəhdlərinə baxmayaraq, 13-cü alayın hücumunun qarşısını ala bilmədilər. Axşama yaxın 13-cü alayın sağ cinahı ilə Müsüslü dəstəsinin sol cinahı Kürdəmirin qərbində birləşdilər. Bu döyüşlərin nəticəsi olaraq qəsəbə düşməndən azad edildi.

Müsüslü dəstəsinin komandiri Həbib bəy Səlimov Azərbaycan korpusunun və Qafqaz İslam Ordusunun komandanlarına göndərdiyi teleqramında hücumun uğurla davam etdiyini və düşmənin geri çəkilməkdə olduğunu bildirdi. "Mən üstün düşməni təqib edirəm" yazan Həbib bəy Səlimov bu teleqramı artıq polkovnik rütbəsində imzalamışdı.

## Şimal və Cənub qrup komandanlığı

Düşmənə qarşı mübarizənin daha səmərəli olması məqsədilə Azərbaycan türk hərbi komandanlığı cəbhədə vuruşan qoşun hissələrində yenidən qruplaşma apardı. 5-ci Qafqaz diviziyası, 15-ci diviziyanın 38-ci alayının bölmələri və Azərbaycan milli qüvvələrindən ibarət olan hissə və bölmələr iki taktiki - Şimal və Cənub qrupuna bölündü. Şimal qrupu Şamaxı üzərindən Bakıya doğru irəliləməli idi. Qrupun komandanı 10-cu piyada alayının komandiri podpolkovnik Osman paşa, Şimal qrupuna podpolkovnik Əhməd Rza paşa, Cənub qrupuna polkovnik Həbib bəy Səlimov komandan təyin edildi.

Ordunun istər şimal, istər cənub cəbhələrindən hər gün qələbə raportları alınmağa başladı. Bəzən düşmən Azərbaycan-Türk Ordusunun adı gələndə döyüş mövqelərini biabırcasına qoyub qaçırdılar.

Bolşevik-daşnak dəstələri geri çəkildikləri bölgələrdə ordunun istifadə edə biləcəyi ehtiyatları məhv edirdilər. Dəmir yolları, rabitə vasitələri və su mənbələri yararsız vəziyyətə salınırdı. Çox uzaqdan gələn silah və hərbi sursat ordumuza çətinliklə çatdırılırdı. Bütün bunlara baxmayaraq, iyulun 26-da dəmir yolu boyunca irəliləyən cənub qrupu birlikləri Qarasu stansiyasını ələ keçirdilər. Şimal qrupundan bir süvari birliyi Bakıdan Mərəzə istiqamətində hərəkət edən biri zirehli olmaqla üç düşmən texnikasını ələ keçirmişdi. Döyüşdə ölənlər arasınada biri zabit, dörd ingilis əsgərinin olması ingilis qüvvəsinin də Bakıya gəldiyini göstərirdi.

İyulun 27-də Cənub qrupu birlikləri düşmən qüvvələrini Hacıqabul stansiyasından da çıxara bildilər. Pirsaat stansiyasına çəkilən bolşevik-daşnak birlikləri Qarasu və Hacıqabul stansiyaları arasında yerləşən altı körpünü dağıtmışdılar. Tədricən dəmir yolunu da dağıdan düşmən stansiyalardakı rels dəyişdiricilərini də çıxarıb özləri ilə aparırdılar. Hərbi sursat, ərzaq və əsasən də suyun qatarla arxadan gəldiyi düşünülsə, dəmir yolunun dağıdılması ilə Cənub qrupu birliklərinin nə qədər ağır şərtlərlə döyüşdüklərini təsəvvür etmək olar...

**(Ardı var)**